# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş şahmat turniri

*C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə həsr olunmuş şahmat turniri başa çatdı. Turnirin bağlanış mərasimində ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.*




Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov çıxışında bildirdi ki, Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarımızın xatirəsinə həsr olunmuş idman yarışlarının keçirilməsi ənənə halını alıb. "Bu yarışlarda kursantlar fəal iştirak edirlər. Belə tədbirləri keçirməkdə əsas məqsəd həm kursantlarda hərbi vətənpərvərlik tərbiyəsini daha da yüksəltmək, həm qəhrəman oğullarımızın xatirəsini yad etmək, həm də idmanı gənclərə sevdirməkdir.

Şahmat turniri Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə həsr olunmuşdu. Bir vaxtlar Elşad bizim məktəbimizdə təhsil almışdı. Onu qəhrəmanlığa aparan yol başlanğıcını buradan götürüb. Bildiyiniz kimi, şahmat fiziki deyil, intellektual bir yarışmadır. Başqa birinciliklərdə qələbə qazanmaq üçün güc lazım olursa, burada ağıl, zəka köməyə çatır. Kursantlar yarış boyu çox gərgin oynadılar, komandalarını irəli çıxarmaq üçün bütün bacarıqlarını ortaya qoydular. Bu gün qalibləri mükafatlandırmaq üçün toplaşmışıq. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə sizi ürəkdən təbrik edir, xidmətinizdə yeni-yeni uğurlar arzulayıram."

Hərbi liseyin idman rəisi Fərhad Əliyev turnirdə qalib gələn komandaları və şəxsi birincilikdə yüksək yerləri tutan kursantların adlarını elan etdi. Məlum oldu ki, 8-ci bölüyün kursantları turnirin qalibi olublar. 2-ci yerə 2-ci bölüyün kursantları, 3-cü yeri 5-ci bölüyün kursantları tutublar.

Şəxsi birincilikdə isə 1-ci yerə kursant Yusif Məmmədov, 2-ci yerə Əkbər Abdullayev, 3-cü yerə Mərdan İlyasov çıxıblar.

Qaliblərə kubok, medal və fəxri fərmanlar təqdim edildi.


**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**



Azərbaycan ordusu.2017.-7 yanvar.S.8.